*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 290-298*

https://doi.org/10.62837/2025.10.290

**NATƏVAN RƏHMANOVA**
**AMEA Nəsimi adına dilçilik institutu**

# "SUVERENLİYİN ZƏFƏR YOLU" KİTABINDA SİYASİ DİSKURSUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** siyasi diskurs, müharibə ritorikası, suverenlik, tarixi ədalət, tənqidi diskurs təhlili, milli birlik
**Keywords:** political discourse, war rhetoric, sovereignty, historical justice, critical discourse analysis, national unity

## Giriş

Münaqişə və müharibə dövründə dövlət başçılarının, bu və ya digər tərəfi təmsil edən diplomatların siyasi kommunikasiya fəaliyyəti yalnız informasiya ötürmə vasitəsi deyil, həm də milli birliyi möhkəmləndirən, ictimai konsensusu formalaşdıran və siyasi legitimlik yaradan kompleks ideoloji mexanizm, informasiya mübarizəsi vasitəsi rolunu oynayır Siyasi diskursun performativ xarakteri məhz müharibə kimi kəskin tarixi vəziyyətlərdə daha aydın görünür. Liderin nitqi, çıxışları, müsahibələri real vəziyyət barədə münasibəti ifadə edir, informasiya hücumlarının qarşısını almağa yönəlir, milli yaddaşı aktuallaşdırır, xalqın mübarizlik ruhunu yüksəldir, dövlətin strateji qərarlarını aydınlaşdırmağa xidmət edir. Bu baxımdan, Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsi dövründə xalqa müraciətləri və beynəlxalq mediaya verdiyi müsahibələr Azərbaycan siyasi diskursunun spesifik xüsusiyyətlərini öyrənmək üçün təbii empirik mənbə kimi çox əhəmiyyətlidir.

"Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" əsəri 2025-ci ildə nəşr olunmuş və müasir Azərbaycan siyasi tarixinin ən kritik mərhələlərindən biri olan II Qarabağ müharibəsi dövründə Prezident İlham Əliyevin ictimai çıxış və müraciətlərini təhlil edib vahid sistemdə birləşdirən fundamental mənbədir. Əsərin əhəmiyyəti yalnız çıxışlarda beynəlxalq hüquqi baza tələb edən müddəa və fikirlərin seçilib qabardılması ilə məhdudlaşmır. Müəllif materialı konseptual ardıcıllıq, tarixi paralellər və hüquqi əsaslandırma üzərində quraraq, Prezident nitqinin müharibə kontekstində formalaşdırdığı siyasi-ideoloji mənzərəni aşkara çıxardığına görə tədqiqatın obyekti seçilmişdir [5].

Kitab Prezident İlham Əliyevin müharibə dövründəki xalqa müraciətləri və beynəlxalq mediaya müsahibələri əsasında aparılmış hüquqi-siyasi tədqiqatı özündə birləşdirməklə yanaşı, tənqidi diskurs təhlillə siyasi diskursun semantik strukturunun əsas mövzular dairəsini müəyyənləşdirir və müxtəlif simvolik elementlərinin toplaşdığı nüvəni aşkara çıxarır. Monoqrafiya müəllifinin müvafiq material üzrə xronoloji ardıcıllıqla apardığı tədqiqat və təhlil müharibə reallığının diskursiv

təqdimatını, liderlik modelinin əsas elementlərini və milli-siyasi narrativlərin formalaşmasını beynəlxalq hüquqa, eləcə də siyasi paralellərə istinadla izahnı əks etdirir.

Tədqiqatın məqsədi Prezident İlham Əliyevin müharibə dövründəki çıxışları əsasında siyasi diskursun əsas xüsusiyyətlərini aydınlaşdırmaq, bu diskursun ideoloji çərçivəsini formalaşdıran semantik modelləri aşkara çıxarmaq və müharibə ritorikasının strukturunu təhlil etməkdir. Məqalədə aşağıdakı suallara cavab tapmağa cəhd göstərilmişdir: (1) Prezidentin çıxışlarında müharibə ritorikası hansı ideoloji dayaqlar üzərində qurulur? (2) Siyasi diskursun semantik strukturu hansı əsas mövzular və simvolik elementlər ətrafında formalaşır? (3) Diskursda milli birlik, suverenlik və tarixi ədalət anlayışları necə təqdim olunur? (4) Lider nitqinin emosional-psixoloji təsir mexanizmləri hansı retorik strategiyalarla həyata keçirilir?

Metodoloji yanaşma diskurs analizinə əsaslanır. Tədqiqatın nəzəri çərçivəsi Teun A. van Dijkin tənqidi diskurs təhlili modeli və müharibə ritorikasına konkret mətn, eləcə də mətn hissələrinin şərh olunması bazasında qurulmuşdur. Diskursun makrostrukturunda əsas mövzu sahələrini suverenlik, tarixi ədalət, beynəlxalq hüquq və milli birlik, mikrostruktur səviyyəsində isə ritorik strategiyalar, metaforik ifadə tərzi, simvolik çərçivələr və emosional konsensusun yaradılması kimi elementlər təhlil edilir. Paralel olaraq, müraciətlərin auditoriya ünvanlanma funksiyası, daxili və xarici kommunikasiya formatları arasında fərqlər və media vasitəsilə ictimai legitimləşdirmə mexanizmləri nəzərdən keçirilir.

### 1. Diskurs və siyasi diskurs anlayışları

Mürəkkəb ünsiyyət hadisəsi olan diskurs koqnitiv və tipoloji baxımdan təyin olunmuş şəkildə müəyyən kommunikativ mühitdə gerçəkləşir, bu və ya digər mədəni və sosial birliyə aidliklə şərtlənir. Dilçilikdə diskurs anlayışının təyininə fərqli yanaşmalar vardır. Əsas beş yanaşma fərqləndirilir. Bunlar kommunikativ (funksional), struktur (sintaktik), sosial-praqmatik, struktur üslubi, sosiolinqvistik yanaşmalardır.

Diskurs termininin ilk dəfə Z.Harrisin dilçiliyə gətirməsi fikrinə ədəbiyyatda rast gəlinir. Belə hesab edilir ki, Z.Harris diskursu rabitəli mətn kimi qəbul etmişdir [4, s.12-14]. Bununla belə, diskurs təhlilinin əsasını T.A.van Dijkin qoyması istisna edilmir. Onun fikrinə görə, diskurs mətn və ya kontekst təhlili qollarına ayrılır. Hər iki halda təhlil fonetik, leksik, qrammatik səviyyələri, həmçinin daxili mövzu bağlılığını əhatə edir [7, s.99].

"*Sosial təcrübə forması olaraq istifadə edilən dil diskursdur. Diskurs sosial təcrübə kimi müxtəlif diskursiv hadisələr və şərtlər, institutlar və sosial strukturların qarşılıqlı əlaqəsini nəzərdə tutur*"[8, s.15; 10, s.48].

Diskurs kommunikativ hadisə olub müəyyən ictimai kontekstlə birbaşa əlaqəli şəkildə reallaşır. Nitq şəraiti diskursun forma və məzmununa əhəmiyyətli dərəcədə təsir göstərir.

Diskursun əsas iki növü – fərdi və institusional növlərini ayırmaq olar. Siyasi diskurs institusional növə aiddir. Siyasi diskurs müasir humanitar elmlərdə yalnız mətnlərin məcmusu kimi deyil, eyni zamanda hakimiyyət münasibətlərini formalaşdıran, sosial reallığı təsvir edən və ictimai şüuru yönləndirən kompleks semiotik sistem kimi təhlil olunur. Diskurs nəzəriyyəsinin klassik çərçivəsini müəyyənləşdirən M.Foukaulta görə, diskurs sosial praktikaların strukturunda bilik, güc və ideologiyanın qarşılıqlı təsirini əks etdirən epistemoloji sahədir [3, s. 68]. Bu yanaşma diskursu yalnız dil hadisəsi kimi deyil, siyasi təşkilatlanmanın əsas mexanizmi kimi görməyə imkan verir. Qeyd edilən aspektdən siyasi diskurs hakimiyyətin özünü legitimləşdirmə vasitəsi, sosial həqiqətlərin şərhi və kollektiv birliyin formalaşdığı məkandır.

Norman Ferklo diskursu "ideologiyanın dil vasitəsilə təzahürü" kimi müəyyənləşdirərək, dilin sosial reallığı necə qurduğunu araşdırır [2]. Onun tədqiqatlarında diskurs formalaşdırıcı gücə malikdir: liderin nitqi mövcud ictimai münasibətləri yenidən çərçivələndirir, faktları müəyyən ideoloji kontekstdə təqdim edir və auditoriyanı konkret siyasi məqsədlərə yönəldir. Teun A. van Dijk isə diskurs analizinə kognitiv yanaşmanı tətbiq edir. Onun fikrinə görə, siyasi diskurs "biz–onlar" strukturunda qurulan ideoloji qarşılaşdırmada fəaliyyət göstərir və sosial qruplar arasındakı oxşarlıq, eynilik sərhədlərini müəyyənləşdirir [6]. Bu model müharibə dövründə diskursiv ziddiyyətlərin formalaşmasını, düşmən obrazının mətn içində təmsilini və milli birliyin diskurs vasitəsilə qurulmasını anlamağa imkan verir.

Siyasi diskursun funksiyaları müharibə şəraitində daha aydın və konsentrasiyalı formada görünür. Belə şəraitdə lider nitqi iki paralel səviyyədə fəaliyyət göstərir: birincisi, siyasi qərarların ictimai rəy qarşısında izahı və legitimləşdirilməsi; ikincisi, milli emosional mobilizasiyanın təmin edilməsi. Beləliklə, siyasi diskurs həm informativ, həm də performativ funksiyaya malik olur. Müharibə dövründə dövlət başçısının auditoriya ilə birbaşa kommunikasiya xətti — xalqa müraciətlər, mediaya müsahibələr ictimai rəyin formalaşdırılmasının əsas alətinə çevrilir. Bu kontekstdə diskurs milli identikliyin aktivləşdirilməsini, ədalət konseptinin siyasi çərçivədə təqdimini və tarixi yaddaşın aktuallaşdırılmasını həyata keçirir.

Siyasi diskursun semiotik qatları həm də simvolik mətnlər, metaforik konstruksiyalar və tarixi istinadlar üzərində qurulur. Liderin nitqində suverenlik, tarixi ədalət, döyüş ruhu, "Vətən" və "xalq" kimi açar anlayışlar yalnız semantik vahid kimi deyil, emosional-ideoloji çərçivələr kimi fəaliyyət göstərir. Bu məqamda diskurs yalnız dövlətçilik fikrinin izahı deyil, identikliyi qurma praktikasıdır. Başqa sözlə, diskurs hərbi əməliyyatları siyasi mətnlə "izah edən" deyil, ictimai şüuru formalaşdıran ideoloji məkan kimi təhlil edilir.

Nəticə etibarilə siyasi diskursun araşdırılması üçün nəzəri baza fərqli metodoloji xəttlərin kəsişməsində qurulur. Poststrukturalist yanaşma diskursun güc münasibətlərini göstərir, tənqidi diskurs təhlili ideologiyanın dil vasitəsilə formalaşmasını izah edir, kognitiv diskurs modeli isə auditoriyanın qavrayış mexanizmlərini araşdırır.

**2. "Suverenliyin zəfər yolu" kitabının diskurs mənzərəsi**

Diskurs təhlilinə cəlb edilmiş əsərdə müəllif bir-biri ilə qarşılıqlı əlaqədə olan üç tematik xətti əsas götürmüşdür. Birinci tematik xətt reallaşan ideyalar, ikincisi hüquqi əsaslar, üçüncüsü isə siyasi paralellər kimi təqdim edilmişdir. Hər üç xətt Prezidentin siyasi diskursunda irəli sürülən fikirlər üzrə təhlil olunur. Kitabdakı diskurslar ilkin baş vermiş və nəticəsi real zamanda mövcud olan hadisə ilə bağlıdır. İlkin baş vermiş hadisə Azərbaycan torpaqlarının müəyyən hissəsinin işğalını nəzərdə tutur. Kitab 33 fəsildən ibarətdir və hər fəsildə konkret vaxtdakı siyasi diskurs təhlilə cəlb olunur. Azərbaycan Prezidentinin xalqa müraciətləri monoloji siyasi diskurslardır və onlar xalqa ünvanlanmışdır. Tədqiqatçı həmin diskursların həm şərhinə, həm də diskursiv təhlilinə yer ayırır. İstər şərh, interpretasiya səciyyəli kontekstlərdə müvafiq siyasi diskursdan müəyyən kontekst seçilib təhlilə cəlb olunur. Şərh və təhlilin hüquqi əsaslar hissəsində müəllif institusional diskursun bir növü olan hüquqi diskurslardan istifadə edir.

Siyasi paralellər də konkret kontekstlə bağlanır. Burada hadisədən, faktdan doğan intertekstuallıq müəyyənləşdirilir və pratekst təyin edilir. Burada hər bir pratekst ayrıca bir diskursdur. Kitaba bu cür pratekstlərdən müəyyən fraqmentlər daxil edilmiş və onlar əsas diskursdakı oxşar fikirlə müqayisə məqsədilə istifadə edilmişdir. Bunu konkret nümunə əsasında aydınlaşdırmağa çalışaq.

XV fəsil "Haber Global" televiziya kanalına verilmiş müsahibə mətninin diskurs təhlilini əhatə edir. Bu fəsildə müəllif Prezident diskursundan *"...bizim əsas işimiz... tarixi ədaləti, öz ərazi bütövlüyümüzü bərpa etməkdir. Bunu etmək üçün bizdə kifayət qədər güc var*" fraqmentini seçmişdir [5, s.193]. Müsahibə meyitlərin və yaralıların döyüş meydanından çıxarılması üçün elan olunmuş atəşkəsi Ermənistan tərəfinin pozması, gecə saatlarında Gəncə şəhərinə "Toçka-U" raketlərinin atılması, mülki vətəndaşların qətlə yetirilməsi, mülki şəxslərə qarşı beynəlxalq cinayət törədilməsindən sonra verilmişdir. Jurnalistin ilk sualları da baş vermiş hərbi cinayət barədə məlumatın yayılmasına beynəlxalq səviyyədə biganə münasibətin göstərilməsi ilə bağlı olmuşdur. Bu suallara cavabda Prezidentin diskursunda "*uzun illər ərzində biz gördük ki, həqiqəti eşitmək istəmirlər, yaxud da ki, həqiqəti pərdələmək istəyirlər, məlumatları, gerçək faktları təhrif edirlər*" [1] nitq aktı səslənir ki, burada "həqiqəti eşitmək istəməmək", "həqiqəti pərdələmək", "məlumatları, gerçək faktları təhrif etmək" kimi ifadələrdən istifadə edilmişdir.

Müəllif qeyd olunan cəhətə istinadla müharibə dövründə informasiya mübadiləsi, informasiyanın yayılması məsələlərinin aktuallığı qeyd olunan əsərlərlə intertekstual əlaqə yaratmış, həmin işlərdəki faktlara müraciət etmişdir [İbayev 2025, s.193-194].

Kitabdakı diskursları birləşdirən əsas cəhət müharibə ritorikasıdır. Müharibə ritorikası siyasi diskursun xüsusi formasıdır və dövlət başçılarının nitqində müharibənin səbəbləri, məqsədləri və nəticələri auditoriyaya aydın şəkildə təqdim olunur. Ritorika burada yalnız dilin bədii səviyyəsi deyil, siyasi təsirin vasitəsidir. Faktların seçimi, semantik vurğular, emosional çalarlar və tarixi paralellər vahid konseptual xətt üzrə qurulur. Müharibə mövzusunun əsas elementlərindən biri tarixi ədalət və suverenlik ideyasının legitimləşdirilməsidir. Lider nitqi münaqişəni təsadüfi hadisə kimi deyil, tarixdən qaynaqlanan, beynəlxalq hüquqla əsaslandırılan və milli iradə ilə bağlı bir proses kimi çərçivələndirir. Bu model auditoriyada "haqq mübarizəsi" ideyasını gücləndirir və müharibəyə siyasi-ideoloji əsas yaradır.

A.Kibrikin fikrinə görə, diskursun strukturunu qlobal və lokal hissələrdən təşkil olunur. Mətndəki abzas, fəsil və hissələr qlobal struktura aid edilir. Mikrotemaları əhatə edən hissələr lokal struktur hesab olunur [9, s.82].

Milli narrativ müharibə ritorikasının əsas struktur komponentidir. Narrativ liderin dilində tarixi ardıcıllıqla, simvolik məkanlarla və kollektiv yaddaşla əlaqələndirilir. Məsələn, suverenlik konsepti yalnız hüquqi kateqoriya kimi deyil, milli şüurun mərkəzi elementi kimi göstərilir. Vətən uğrunda mübarizə isə həm şəxsi, həm də kollektiv həmrəylik forması kimi təqdim olunur. Bu kontekstdə "biz" eyniliyi dövlət, ordu və xalqın birliyini əks etdirən semantik nüvəyə çevrilir. Düşmənin obrazı isə ideoloji çərçivədə "ədalətsiz", "işğalçı" və "tarixi maneə" kimi ifadəsini tapır. Beləliklə, diskurs həm milli birlik formalaşdırır, həm də siyasi mövqeyi auditoriya üçün aydınlaşdırır.

Kitabın strukturu siyasi diskursun təhlili üçün xüsusi əhəmiyyət daşıyır. Bütün material xronologiya üzrə təqdim olunsa da, mövzu sahələrinə bölünür. Bir çox hallarda bu mövzu sahələri bir-biri ilə daha sıx əlaqələnərək vəhdət təşkil edir. Suverenlik və dövlətçilik ideyası, beynəlxalq hüququn tətbiqi, tarixi ədalət konsepti, müharibə dövründə diplomatik fəaliyyət və qələbə narrativi kimi bölmələr diskursun ideoloji xəttini izləməyə imkan verir.

Əsərin empirik baza kimi seçilməsi metodoloji baxımdan əsaslandırmaq çətin deyildir. Birincisi, məlumat birbaşa mənbədən götürülmüşdür. İkincisi, çıxışlar həm daxili auditoriyaya (xalq müraciətləri), həm də xarici auditoriyaya (BBC, Al Jazeera, Global Haber və digər beynəlxalq mediaya müsahibələr) yönəlib. Bu ikili kommunikasiya modeli diskursun auditoriya yönümlü fərqlənməsini, ritorik strategiyaların dəyişməsini və ideoloji məzmunun uyğunlaşdırılmasını araşdırmağa imkan verir. Üçüncüsü, əsərdə siyasi diskursun ən gərgin dövrü – aktiv hərbi əməliyyatlar mərhələsi əhatə olunur. Bu dövrdə lider nitqi yalnız dövlət mövqeyini

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 290-298*

ifadə etmir, həm də müharibənin ideoloji əsaslandırılmasına xidmət edir, xalqın səfərbərliyini təmin edir, diplomatik kommunikasiya vasitəsinə çevrilir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 290-298*

### 3. **Müharibə dövrünün siyasi diskursunun xüsusiyyətləri**

Prezident İlham Əliyevin müharibə dövrü çıxışlarının analizi həmin dövrün spesifik siyasi kontekstinin nəzərə alınmasını tələb edir. II Qarabağ müharibəsi yalnız hərbi əməliyyatlar məkanı deyil, həm də informasiya müharibəsi, diplomatik qarşıdurma və geosiyasi transformasiya mərhələsi idi. Müharibə dövrü kommunikasiya paralel kanallarda qurulmuşdur. Bir tərəfdən xalqa müntəzəm müraciətlər vasitəsilə milli həmrəylik təmin edilmiş, digər tərəfdən, beynəlxalq media platformaları vasitəsilə münaqişənin hüquqi əsasları və Azərbaycanın mövqeyi qlobal ictimaiyyətə izah olunmuşdur.

Bu dövrdə siyasi diskursun əsas funksiyalarından biri tarixi ədalət konseptinin formalaşdırılması idi. Lider nitqində münaqişə postsovet dövrünün təsadüfi münaqişəsi kimi təqdim olunmurdu; əksinə, tarixi zəmin üzərində qurulurdu: Azərbaycan torpaqlarının işğalı, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələri, qaçqın və məcburi köçkünlərin taleyi kimi elementlər diskursun məzmununda mühüm yer tuturdu. Tarixi ədalət bu çərçivədə yalnız keçmişin narrativi deyil, həm də qələbənin legitimləşdirmə mexanizmi kimi işləyirdi.

Müharibə kontekstində diskursun digər mühüm komponenti suverenlik və milli iradə anlayışıdır. Prezident nitqi suverenliyi abstrakt siyasi termin kimi deyil, xalqın öz torpağı üzərində tam mülkiyyət hüququnun bərpası, dövlətin ərazi bütövlüyünün qorunması və milli iradənin reallaşması kimi izah edir. Bu yanaşma auditoriyada birlik hissini gücləndirir və müharibənin məqsədlərini siyasi və mənəvi səviyyədə əsaslandırır.

Müharibə dövründə Rusiya, Türkiyə və Qərb ölkələri ilə münasibətlərin balanslı şəkildə təqdim edilməsi diskursun beynəlxalq siyasətə yönümlü xarakterini göstərir. Bir tərəfdən, regiondakı güc mərkəzlərinə hörmət və strateji əməkdaşlıq ifadə edilir, digər tərəfdən, Azərbaycanın müstəqil siyasi xətti və öz gücünə əsaslanan qərarvermə modeli vurğulanır. Bu balanslı yanaşma diskursun yalnız milli auditoriyaya deyil, qlobal informasiya məkanına da ünvanlandığını təsdiq edir.

Nəhayət, müharibə dövrü siyasi kontekst informasiya axınının yüksək intensivliyi ilə səciyyələnirdi. Rəsmi müraciətlər real vaxt rejimində cəmiyyətin emosional vəziyyətinə təsir edir, döyüşlərdən gələn məlumatları siyasi çərçivəyə salır və qələbə narrativinin strukturunu formalaşdırırdı. Bu proses diskursun yalnız təsviredici funksiyasını deyil, həm də ideoloji-funksional xarakterini üzə çıxarır.

Makrostruktur analiz diskursun ümumi semantik çərçivəsini müəyyənləşdirməyə, Prezident İlham Əliyevin müharibə dövrü nitqlərinin hansı əsas mövzular üzərində qurulduğunu göstərməyə və bu mövzuların siyasi-ideoloji funksiyasını izah etməyə imkan verir. Van Dijkə görə, makrostruktur diskursun "ümumi məzmun xəttini" təşkil edən dominant ideyalar və təkrarlanan semantik modellərdir; onlar auditoriya tərəfindən mətnin ötürülən əsas ideyası kimi qəbul olunur [van Dijk, 1985]. "Suverenliyin zəfər yolu" əsasında aparılan təhlil göstərir

ki, diskursun makrostrukturunda beş əsas mövzu sahəsi açıq şəkildə fərqlənir: (1) suverenlik və tarixi ədalət, (2) beynəlxalq hüquq və legitimlik, (3) ordu, güc və dövlətçilik, (4) diplomatik balans və qlobal kommunikasiya, (5) qələbə narrativi və gələcək inkişaf modeli.

Bu mövzular ayrı-ayrılıqda deyil, bir-biri ilə əlaqəli şəkildə diskursun ideoloji çərçivəsini formalaşdırır. Hər mövzu siyasi diskursun həm informativ, həm də performativ funksiyasını daşıyır.

**4. Nəticə və ümumi qiymətləndirmə**

“Suverenliyin zəfər yolu” əsasında aparılmış diskurs analizi göstərir ki, Prezident İlham Əliyevin müharibə dövründəki çıxışları müasir siyasi kommunikasiya modelinin kompleks və çoxqatlı strukturunu nümayiş etdirir. Bu diskurs yalnız informativ mətnlər məcmusu deyil, milli birliyin formalaşdırılması, tarixi ədalətin legitimləşdirilməsi və müharibənin mənəvi-siyasi əsaslandırılması üçün istifadə olunan ideoloji alətdir. Tədqiqat göstərir ki, müharibə dövründə siyasi diskurs üç əsas performativ funksiyaya malikdir: (1) legitimlik yaratmaq, (2) emosional mobilizasiya təmin etmək, (3) milli birliyi qurmaq.

Diskursun makrostruktur təhlili beş dominant mövzu sahəsini üzə çıxarır. Suverenlik və tarixi ədalət konseptləri diskursun ideoloji nüvəsini təşkil edir və müharibənin etik əsaslandırılmasını təmin edir. Beynəlxalq hüquqa istinad münaqişənin rasional çərçivədə izahına xidmət edir, qlobal auditoriya üçün normativ baza yaradır. Ordu və dövlətçilik diskursu qələbəni yalnız hərbi əməliyyat kimi deyil, dövlət quruculuğunun nəticəsi kimi təqdim edir. Diplomatik balans isə diskursun regional və beynəlxalq siyasətlə sıx əlaqələndirilməsinə imkan verir. Nəhayət, qələbə narrativi post-müharibə dövrünün siyasi-ideoloji xəttini müəyyən edir və gələcək inkişaf modelini qurur.

Diskursun mikrostruktur təhlili leksik-semantik səviyyədə istifadə olunan ritorik strategiyaların sistemli xarakterini ortaya çıxarır. Metaforlar, tarixi istinadlar, simvolik ifadələr və qəhrəmanlıq diskursu müharibəni sırf hərbi hadisə kimi deyil, “haqq mübarizəsi” kimi təqdim edir və milli emosional konsensus yaradır.

Tədqiqatdan aydın olur ki, müharibə dövründə Prezident İlham Əliyevin siyasi diskursu milli ideologiyanın formalaşması və tarixi ədalətin bərpasının ictimai legitimləşdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Diskurs tarixi reallığı mənalandırır, qələbə narrativini qurur və ictimai rəyin strukturunu müəyyən edən ideoloji çərçivə yaradır. Bu baxımdan, “Suverenliyin zəfər yolu” əsəri müasir Azərbaycan siyasi düşüncəsinin elmi öyrənilməsi üçün dəyərli mənbədir.

**ƏDƏBİYYAT**

1. Əliyev, İ. Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə// https://president.az/az/articles/view/42723

2. Fairclough, N. Critical discourse analysis: The critical study of language. London: Longman, 1995. – 268 p.
3. Foucault, M. The archaeology of knowledge. -London: Tavistock, 1972. - 254 p.
4. Harris, Z. Discourse analysis // Language. – London, 1952, Vol. 28, № 1. - Pp. 1-30.
5. İbayev, V. Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər. - Bakı: HİHİ nəşri, 2025. -465 s.
6. van Dijk, T. A. Introduction: Discourse analysis in context//T. A. van Dijk (Ed.), Handbook of discourse analysis (Vol. 1. - London: Academic Press, 1985. – Pp.1-10
7. Ван Дейк, Т.А. Язык. Познание. Коммуникация / Т.А. Ван Дейк. — Москва: Прогресс, 1989. — 312 с.
8. Водак, Р. Язык. Дискурс. Политика / Р.Водак. — Волгоград: Перемена, 1997. — 139 с.
9. Кибрик, А.А. Дискурсивная таксономия и медийный дискурс/ А.А. Кибрик // Язык и дискурс средств массовой информации в XXI веке. - Москва: Академический проспект, 2011. - С. 79-85.
10. Тичер, С. Методы анализа текста и дискурса / С.Тичер, М.Мейер, Р.Водак, Е.Беттер. — Харьков: Гуманитарный центр, 2017. — 356 с.

**Rəhmanova N. "Suverenliyin zəfər yolu" kitabında siyasi diskursun əsas xüsusiyyətləri**

**Xülasə**

Məqalədə Vəfaddin İbayevin "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" əsəri əsasında Prezident İlham Əliyevin II Qarabağ müharibəsi dövründəki çıxış və müsahibələrində formalaşan siyasi diskursun əsas xüsusiyyətləri təhlil olunur. Tədqiqatın məqsədi müharibə şəraitində lider nitqinin ideoloji çərçivəsini, semantik strukturunu və ritorik strategiyalarını aşkara çıxarmaqdır. Metodoloji baza Teun A. van Dijkin tənqidi diskurs təhlili modeli əsasında qurulmuşdur. Araşdırma göstərir ki, müharibə dövründə siyasi diskurs suverenlik, tarixi ədalət, beynəlxalq hüquq, milli birlik və qələbə narrativi kimi əsas mövzu sahələri üzərində formalaşır. Prezidentin çıxışları yalnız informativ deyil, eyni zamanda performativ xarakter daşıyaraq ictimai legitimlik yaradır, emosional mobilizasiya təmin edir və milli birliyi möhkəmləndirir. Məqalədə diskursun makro və mikrostruktur səviyyələri ayrılıqda təhlil edilir və lider nitqinin müasir siyasi kommunikasiya sistemində strateji rolu əsaslandırılır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 290-298*

**Rahmanova N.** The Main Features of Political Discourse in the Book "The Path to the Triumph of Sovereignty"

**Abstract**

The article analyzes the main features of political discourse formed in President Ilham Aliyev's speeches and interviews during the Second Karabakh War, based on Vafaddin Ibayev's book *"The Path of Sovereignty's Victory: Realized Ideas, Legal Foundations, Political Parallels."* The study aims to identify the ideological framework, semantic structure, and rhetorical strategies of leadership discourse in wartime. The methodological approach is grounded in Teun A. van Dijk's model of Critical Discourse Analysis. The research demonstrates that wartime political discourse is structured around key thematic domains such as sovereignty, historical justice, international law, national unity, and the victory narrative. The President's speeches function not only as informative texts but also as performative instruments that generate political legitimacy, ensure emotional mobilization, and reinforce national cohesion. The article distinguishes between macro- and micro-structural levels of discourse and substantiates the strategic role of leadership communication in modern political discourse during armed conflict.

**Rəyçi:** filologiya elmləri doktoru K.Vəliyeva